Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Uşaq və gənclərin
fiziki və mənəvi inkişafı



YENİ MÜSAVAT
N 213 (7870) 25 noyabr 2021

# Uşaqlarını küçəyə atan valideynlər həbs edilə bilər

## Azərbaycanda atılan uşaqlarla bağlı qanunvericilikdə nələr həll olunmalıdır?

**Kliniki Tibbi Mərkəzin tabeliyindəki Ə.F.Qarayev adına 2 saylı Kliniki Uşaq Xəstəxanasına yerləşdirilən 14 günlük atılmış körpənin vəziyyəti yaxşılaşıb. Gətirilərkən vəziyyəti orta-ağır olan körpə həkimlərimizin səyi nəticəsində sağalmaq üzrədir.**

Kliniki Tibbi Mərkəzin mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, Nəsimi rayonundakı yaşayış binalarından birinin giriş qapısının qarşısında tapılaraq 1 saylı Körpələr Evinə yerləşdirilən körpənin səhhətində müəyyən problemlər olduğundan 21 noyabr 2021-ci il tarixində 2 saylı Kliniki Uşaq Xəstəxanasına gətirilib.

Körpənin vəziyyəti tam yaxşılaşdıqdan sonra yenidən 1 saylı Körpələr Evinə qaytarılacaq.

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da uşaqların atılmasının bəlli səbəbləri var. Bu siyahıda ilk olaraq qeyri-qanuni nikahdan, təsadüfi münasibətlərdən dünyaya gələn uşaqlar yer alır. İkinci sırada isə uğursuz, anormal nikahlar dayanır. Normal ailələrin təcrübəsində uşağın küçəyə, zibil qutusuna atılması, ya da ananın onu dünyaya gətirdiyi xəstəxanada qoyub getməsi halları yoxdur. Arzuedilməz uşaqdan qurtulmaq istəyən ailələr daha çox hamiləliyin ilk aylarında bu məsələni yoluna qoyurlar.

Ekspertlər isə deyir ki, uşağını atmaq istəyən qadın bütün hallarda ondan imtina etməyin yollarını tapacaq. Bu baxımdan da körpələrin küçələrə atılmasının qarşısını almaq üçün profilaktika gücləndirilməlidir. Həll yollarından biri odur ki, hamiləlik dövründə bütün qadınlar qadın məsləhətxanalarının nəzarətinə cəlb olunmalı və onlarla müəyyən psixoloji söhbətlər aparılmalıdır.

Bundan başqa, çıxış yolları sırasında küçəyə atmaq əvəzinə, uşaqların veriləcəyi klinikaların sayını da çoxaltmaq lazımdır. Belə ki, uşağından imtina etmək istəyən qadın doğum evində olarkən oranın rəhbərliyinə məlumat verməli, ya da yaşadığı rayonun icra hakimiyyətinin nəzdində uşaq və yeniyetmələrlə bağlı komissiyaya müraciət edə bilər. Bu zaman uşağı ondan götürüb uşaq evlərinə və ya başqa şəxslərə övladlığa verə bilərlər. Bunun sivil yolu olduğu halda kriminal yollardan istifadə etmək olmaz.

Əgər küçədə aşkarlanmış uşaq müəssisəyə yerləşdirilirsə və valideyn hüquqları məhdudlaşdırılırsa, bu uşaqlar sığınacaqda reabilitasiya keçdikdən sonra bir qayda olaraq dövlət uşaq müəssisələrinə yerləşdirilməsi üçün icra hakimiyyətlərinin sərəncamları əsasında müəssisələrə istiqamətləndirilir. Bir çox hallarda isə valideynlər öz səhvlərini başa düşürlər. Əgər uşağa ailədə zorakılıq törədilməyibsə, bu uşağın küçəyə düşmə səbəbi ailədəki şiddət , təcavüzdən irəli gəlməyibsə, o zaman valideyn hüquqları ona izah olunur. Bundan sonra uşaq ailədə yaşamağa davam edə bilər. Əks hallarda isə valideyn hüquqları məhdudlaşdırılaraq, uşaq dövlət tərəfindən nəzarətə alınır.

### AZƏRBAYCANDA ATILAN UŞAQLARIN SAYI İLDƏN-İLƏ AZALIR



**Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov "Turan" agentliyinə bildirib ki, son illər ərzində uşaqlardan imtina hallarının sayı azalıb:** "Dünyada belə ölkə yoxdur ki, orada atılmış uşaq olmasın. Qonşu ölkələrlə müqayisə etsək, Azərbaycanda valideynin himayəsindən məhrum olunmuş uşaqların sayı qat-qat aşağıdır və getdikcə azalır. 2016-cı ildə belə uşaqların sayı 21 min idisə, ötən il üçün bu rəqəm 3 minə qədər idi. Ancaq bu o demək deyil ki, biz bugünkü nəticə ilə razıyıq".

**Qurum rəsmisi qeyd edib ki, bu hallar yolverilməzdir:** "Biz vətəndaşlara həmişə çağırış edirik ki, hər hansı probleminiz olduğu halda, uşağı istəmirdinizsə, amma o doğulubsa, dövlət qurumlarına müraciət edin».

Milli Məclisdə yetkinlik yaşına çatmayan uşaqların baxımsızlığı və onların hüquqlarının qorunması haqqında qanun layihəsi var. Cinayət Məcəlləsinin 176-cı maddəsinə əsasən, uşaqlara və valideynlərə kömək göstərməkdən qərəzli boyun qaçıranlar 100-500 manat arasında cərimə, bir il ərzində islah işləri və ya 6 aylıq azadlıqdan məhrum edilir. Bundan əlavə, Nazirlər Kabinetinin 2000-ci ildə atılmış uşaqlarla bağlı 170 saylı qərarı var ki, həmin qərara əsasən, 0-3 yaşına qədər uşaqlar icra hakimiyyəti orqanları, Qəyyumluq və Himayəçilik Komissiyasında, Səhiyyə Nazirliyində, 3 yaşdan sonra isə Təhsil Nazirliyində qeydə alınır. Atılmış uşaqlar polis tərəfindən tapıldıqdan sonra İcra Hakimiyyətinə təqdim olunur, daha sonra o, körpələr və ya internat evində yerləşdirilir. Təəssüf ki, belə uşaqlar üçün ayrıca reabilitasiya mərkəzləri yoxdur. Yalnız Binəqədi rayonunda özəl fəaliyyət göstərən müvəqqəti sığınacaq var. Uşaqların və zorakılığa məruz qalan qadınların sığınacaq evlərinin olması komitəmizin planında olan məsələlərdən biridir. Biz düşünürük ki, atılmış uşaqlar və məişət zorakılığına məruz qalan qadınlar üçün regionlarda sığınacaqlar olmalıdır. Həmin sığınacaqlarda həm atılmış uşaqlar, həm də məişət zorakılığına məruz qalan qadınlarla məşğul olacaq psixoloqlar, terapevtlər, pediatrlar və başqa müəllimlərin olması vacibdir.

Konstitusiyanın 17-ci maddəsinə görə, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək hər bir valideynin borcudur.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Nazirlər Kabinetinə təqdim etdiyi Milli Uşaq Strategiyasında uşaq hüquqlarının pozulmasının qarşısının alınması yolları da göstərilir. Bu strategiya 2015-2025-ci illəri əhatə edəcək. Milli Uşaq Strategiyası 10 il müddətinə Azərbaycanda dövlət uşaq siyasətinin prioritetini təşkil edəcək. Strategiyanın hazırlanmasında uşaqların hüquqlarının müdafiəsi mexanizminin hazırkı imkanlarından istifadə edərək onların hüquqlarının tam olaraq müdafiəsini təmin etməkdir. Strategiyada uşaqların mədəni-estetik tərbiyəsinin təşkili, onların inkişafı məsələləri əks olunub. Habelə Strategiya zorakılığa məruz qalan, erkən nikaha sövq edilən uşaqların hüquqlarının müdafiəsi ilə bağlı gələcəkdə konkret tədbirləri müəyyənləşdirir, problemlərin həlli yollarını göstərir. Eyni zamanda Strategiyada uşaq evlərini tərk edən uşaqların sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyasında kompleks tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI